*UOT 327.56*

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru,***
***AMEA Qafqazşünaslıq İnstitutunun***
***Gürcüstanşünaslıq şöbəsinin müdiri***

# GÜRCÜSTANDA ƏSASSIZ ERMƏNİ İDDİALARI

***Annotasiya***

*Məqalədə erməni tədqiqatçıların özlərinin mənfur strateji planlarının tərkib hissəsi olan yaxın və uzaq ölkələrə, o cümlədən qədim Gürcüstanın əzəli və əbədi paytaxtı Tbilisi şəhərinə əsassız iddiaları məsələləri araşdırılmışdı. Müəllif üzdən iraq erməni tarixçilərinin özlərinin uydurduqları saxta "ilk mənbələrlə" Tiflisin erməni şəhəri olmasına zənn etmələrinin əsassız olduğunu göstərmişdir. Erməni tədqiqatçıları saxta dəlillərlə "sübut etməyə" çalışırlar ki, Tiflisin qədim adı ermənicə Tpxis olmuş, əhalisi əsasən ermənilərdən ibarət imiş, ona görə də 1840-cı ildən 1920-cı ilə qədər şəhər idarəsinin başçıları ermənilər olmuş, Tbilisidəki bütün məşhur mədəni abidələri ermənilər tikdirmiş, ümumiyyətlə şəhər onların maddi vəsaiti ilə yenidən qurulmuş və Tbilisi Qafqazın mərkəzi şəhərlərindən birinə çevrilmişdir. Müəllif bu qənaətə gəlmişdir ki, bütün bunlar əsassız olub, tarixi faktlara söykənmir və gürcü xalqının qanuni haqlarının pozulmasına yönəlmişdir.*

***Açar sözlər**: ermənilər, Tbilisi, əsassız iddialar, uydurma tarix, saxtakarlıq, erməni yalanları, ictimai idarəçilik, özünüidarəetmə, merlik, merlər, şəhər idarəsi başçıları.*

***Annotation***

*The article is devoted to the unjustified claims of Armenians to the countries of near and far abroad, including the ancient Georgian capital of Tbilisi, which is an integral part of the insidious strategic plans of Armenian researchers. The author shows how unjustified Armenian historians fabricated "first sources" to prove that Tiflis is an Armenian city. Armenian scholars try to "prove" by falsification that the ancient name of Tiflis was Armenian Tpkhis, where the population was mostly Armenians, so from 1840 to 1920 the head of the city administration was Armenians, all the prominent cultural monuments of Tbilisi were built by Armenians, and in the whole city was rebuilt on their material means and Tbilisi was turned into one of the central cities of the Caucasus. All this is unreasonable and does not rely on historical facts and is aimed at violating the legitimate rights of the Georgian people.*

***Keywords:** Armenians, Tbilisi, unreasonable claims, fictitious history, falsification, Armenian lie, public administration, self-government, mayor, head of city government.*

## *Giriş*

Ermənilər harada kompakt yaşayırlarsa, oraya nə vaxt köçmələrindən, məskunlaşmalarından asılı olmayaraq həmin bölgəni öz tarixi əraziləri hesab edirlər. Onlar yaşadıqları ərazilərdə hər şeyə - torpağa, tarixə, mədəniyyətə, tarixi abidələrə, adət-ənənələrə iddia edir, ictimai həyatın bütün sahələrində "erməni izi" axtarır, saxta "erməniləşdirmə", "ermənilik" ideyalarını dünya ictimaiyyətinə "sırıyırlar".

Cənubi Qafqazın "gəlmə" ünsürlərindən olan ermənilər himayədarlarının köməyilə Azərbaycan ərazilərində Dağlıq Qarabağda ikinci "erməni dövləti" yaratmağa cəhd edərək əzəli Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. Onlar Gürcüstana XIX əsrdə köçmələrinə baxmayaraq gürcülərin tarixlərinə, kilsələrinə, mədəniyyətlərinə, ərazilərinə "şərik" çıxırlar. Görkəmli gürcü ziyalısı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində yaşayıb-yaratmış, "millət atası" hesab olunan knyaz İlya Çavçavadze 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində hələ XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa, Qafqazda "ayaq tutub yeridiyin"dən, onların əsassız "Böyük Ermənistan" iddialarından bəhs edir: "İş ondadır ki, onlar (ermənilər-V.Ö) sözlə, qələmlə bütün dünyaya bəyan edib, and içirlər ki, guya əsrlər boyu Qafqaz sıra dağlarından Fərat və Dəclə çaylarının mənsəbinədək Ermənistan adlanan yer olmuşdur. (Guya Somxetiya, daha doğrusu somex-haykanların (ermənilərin) ölkəsi-İ.Ç.) [19, s.2]

Ermənilər gürcülərə yuxardan baxır, onları rusvay edir, bu xalqı milli ləyaqətdən məhrum etməyə, bir millət kimi Yer üzündən silməyə çalışırdılar. Ermənilər "bizim bütün tariximizi, salnamələrimizi, tarixi abidələrimizi, qanla qazandığımız hər şeyi, xristianlıq qarşısında xidmətlərimizi, bizə məxsus olan hər nə varsa hamısını, bizim tarixi sərvətlərimizi məhv edir, müxtəlif yalan yollarla öz adlarına çıxarırlar". [19, s.3]

Ermənilər saxta tarix "yaradaraq" guya qədim dövrlərdən Cənubi Qafqazda yalnız erməni millətinin mövcud olduğunu, burada gələcəyin yalnız onlara məxsus olduğunu bütün dünyaya "sübut etməyə" cəhd edirlər. Onlar özlərinin fiziki və mənəvi güclərini guya saxta tarixlə "təsdiq etmişlər" İ.Çavçavadze gürcülərin mənəvi və fiziki mövcudluğunu inkar edən özündən razı ermənilərə qarşı çıxaraq yazır: "Bu erməni qrupunun maskalarını yırtmaq vaxtıdır. O ermənilərin ki, istinasız olaraq biz gürcülər haqqında saysız-hesabsız dedi-qodular, yalanlar yayırlar" [19, s.7]

Ermənipərəst rus yazıçısı baron Brambeys təxəllüslü Senkovski hələ 1838-ci ildə yazırdı: "VI Vaxtanqa qədər gürcülərin salnamələri yox idi, hətta gürcülərin özləri XII əsrədək mövcud olmamışlar. İverlər adı altında müxtəlif dağlıq tayfaları məlum idi, Kür çayının arxasında indi Tiflisin yerləşdiyi ərazilər və Gürcüstanın böyük hissəsi əsrlər boyu ermənilərə məxsus idi. Burada ermənilər, midiyalılar, massagetlər və ya türklər və albanlar məskunlaşmşdılar" [7, s.151-178]

İ.Çavçavadze, Senkovskinin Tiflis də daxil olmaqla Gürcüstanın böyük bir hissəsinin ermənilərə məxsus olduğu fikrini alt-üst edir. Senkovskinin bu mülahizələrinin "erməni alimlərindən" irəli gəldiyini, onların Gürcüstanın ancaq pis tərəflərini gördüklərini, gürcülərdən daha çox şey qoparıb mənimsədiklərini sübut edir. Gürcü müəllifi, erməni yazıçıları Eminov, Xuabaşov və Yeritsovun yuxarı Kartalinyaya daxil olan Çorox, Samtsxe-Slatabaqonu heç vaxt mövcud olmayan xəyali "Böyük Ermənistan"a daxil etdiklərini bildirir. Lakin görkəmli gürcü yazıçısı İ.Çavçavadze həmin bölgələrdə gürcü toponimlərinin mövcudluğunu, "bu yerlərdə gürcülərin yaşadıqlarını, VII-VIII əsrlərdən XIV əsrlərədək məbədlər, monastırlar tiktiklərini, indi də onların mövcud olduğunu" göstərir.

Ermənilər o vaxtdan indiyədək gürcülərin məbədlərini, monastırlarını, kilsələrini mənimsəyirlər. XIX əsrdə İran və Türkiyədən Cənubi Qafqazın avtoxton əhalisinin-azərbaycanlıların və gürcülərin əsrlər boyu məskunlaşdıqları Azərbaycana və Gürcüstana köçürülən ermənilər çox keçmədən yerləşdikləri ərazilərə əsassız iddialar irəli sürdülər. "Məlum olduğu kimi, ermənilər Türkiyə və İran ərazilərindən müxtəlif vaxtlarda bizə köçürülmüşlər... Biz gürcülər xristianlara xas olan xeyirxahlıq və ürəklə onları qəbul edib öz torpaqlarımızda məskunlaşdırdıq" [12, s.72]

Ermənilər sələmçiliklə, aldatma və fırıldaqçılıqla onlara yurd-yuva vermiş gürcülərə vicdansızlıqla kələk gəlməklə çoxlu var-dövlət sahibi oldular. Buna görə təsadüfən deyil ki, Vaxtanqın qanunlarında belə ifadələrə rast gəlmək olur: "Lakin yunanlar və alçaq ermənilər arasında tənələr də əsaslıdır" [15, s.308]

Var-dövlət, kapital əldə edən ermənilər Tiflisdə binaları ələ keçirməyə başladılar. "Beləliklə, ermənilərin əllərinə çoxlu binalar keçdi. Hələ Zadəgan küçələrində və Qolovinski prospektindəki binaların, ümumiyyətlə Tiflisdəki ən yaxşı küçələrdəki evlərin hamısı gürcülərə məxsus olduğu halda, indi onlar ermənilərin mülklərinə çevrilirdi." [12, s.67]

Ermənilərin məqsədlərinə çatmaq üçün istifadə etdikləri əsas vasitələr saxtakarlıq, yalan və aldatmadır. Onlar Gürcüstandakı abidələrdən, məbədlərdən kilsələrdən gürcü izlərini, gürcü yazılarını silərək "erməniləşdirmişlər". Digər bir üsul gürcülərdən bəhs edən qədim salnamələrin məhv edilməsidir. Onlar "Kartlis-Sxobreba" kimi gürcü tarixi mənbəyini məhv etmək istəmişlər, onu "erməni xronikası" kimi təqdim etmişlər.

Erməni "alimləri" və ermənipərəst Qərb və rus "professorları" Strabonun hələ qədimdən gürcülərin Cənubi Qafqazda məskunlaşmalarından bəhs edən əsərləri, Pəhləvi sanskrit dilində yazılmış "Kilila və Mana", "Vus-Raxiani" kimi qədim salnamələri, XI-XII əsrlərdə Qurucu David və Tamaranın hakimiyyəti illərində Gürcüstanın çiçəkləndiyini "görmürlər". İ.Çavçavadze qeyd edir ki, təəssüf ki, professor Patkanov kimi ermənipərəst "tədqiqatçılar" "Vepsis-Tkaosani" ilə tanış olmadıqlarını bəyan etməklə bir tərəfli qaydada gürcü tarixinin qədimliyini şübhə altına almağa cəhd edirlər. "Halbuki Jan Sen-Marten, Vibien-de-Sen Marten, Dübua de Monpere kimi məşhur, görkəmli alimlər aydın bir şəkildə bildirirlər ki, gürcü tarixi salnamələri yalnız Qafqazın deyil, Asiyanın tarixi üçün də mənbə kimi diqqəti cəlb edir" [19, s.21]

Gürcülərin bu yerlərin qədim sakinləri olduqları barədə tanınmış alimlərin fikirlərini saxta erməni "tədqiqatçı"ları inkar edirlər. İ.Çavçavadze onların Avropa qəzetlərinə Gürcüstanda nə varsa hər şeyin, hətta Gürcüstanın qədim şəhəri Tiflisin də erməni şəhəri olduğu haqqında yalan informasiyaları ötürdüklərini göstərir. Gürcü yazıçısı həm 1877-ci ildə fransız "Temps" qəzetinin Gürcüstana ezam olunmuş Kutuli adlı müxbiri ilə Vladiqafqazda görüşən artilleriya zabiti olan bir erməni onu Tiflisə gətirir. Çox ehtimal ki, yolda onun müxbirə nələri, hansı yalanları danışdıqları heç kəsə məlum deyildir. Zabit onu "Mşak" qəzetinin mərhum redaktoru Artsurinin yanına gətirir. Kutuli onu "liberal partiyalardan birinin başçılarından biri, erməni müqəddəs yazılarını patriarxın özündən yaxşı bilən bir şəxs

kimi" səciyyələndirirdi. Artsuri Kutulini Tiflis şəhər dumasına aparır, ona "kiçik parlament üzvlərinə" "nazir" kimi təqdim edir, bütün erməni kilsələrini gəzdirir, sonra isə bu xarici qonağı erməni məktəblərilə tanış edir. Artsuri onu erməni ziyalı dairəsinə də, məbəd mərasiminə də aparır. Fransız qonaq heyran qalır: burada hər şey ermənilərindir: "parlament" erməninindir, kilsələr, bayramlar, filosoflar, yeməklər erməninindir, bir sözlə, Tiflisdə hər şey erməninindir. Aydındır ki, bura Ermənistandır, Tiflis də Ermənistan şəhəridir. Beləliklə, ermənilər Avropa müxbirini inandırırdılar ki, Tiflis də daxil olmaqla Gürcüstan-Ermənistandır. Bu xəbər bütün dünyada "Temps" kimi nüfuzlu bir qəzetin vasitəsilə yayıldı". [19, s.43-44]

Kutuli "Cənubi Qafqazda dörd millətin-ermənilərin, gürcülərin, tatarların (azərbaycanlıların-V.Ö.) və rusların yaşadıqlarını göstərirdi. Onu inanmağa məcbur edirdilər ki, Tiflis-Ermənistandır, lakin təkcə Tiflis deyil, guya bütün Zaqafqaziya ( Cənubi Qafqaz-V.Ö.) ermənilərə məxsusdur; onlar bu arzularını gördüyümüz kimi həyata keçirməyə çalışırdılar. Kutulinin erməni dostları onu Zaqafqaziyaya-bütün Cənubi Qafqazda erməni millətinin üstünlüyündən yazmağı və bunu bütün Avropaya yaymağa məcbur edirdilər. Ticarət, bütün sənətlər, ictimai həyatın bütün sahələri onların əllərindədir. Onlar həkim, vəkil, azad peşə sahibidirlər. Onların Tiflisdə öz məktəbləri, jurnalları, kiçik parlamentləri vardı. Hazırda (XIX əsr-XX əsrin əvvəlində-V.Ö.) onlardan çoxu hərbi xidməti yerinə yetirirlər. "Mədətov, Bebutov, Arqutinski, Loris-Məlikov, Lazerev, Alxazov, Ter-Qukasov-bu generallar guya rus ordusunu erməni millətinin nümayəndələri kimi təmsil və təmin edirdilər." [19, s.46]

Elm və incəsənət sahəsində "ad qazanmış" "məşhur ermənilər" əslində heç kəs tərəfindən tanınmırdılar. Şişirdilmiş, saxta məlumatlardan ruhlanan Kutuli belə bir peyğəmbərlik iddiasına düşür: "Qafqazın gələcəyi ermənilərə məxsusdur, qonşu gürcülər və tatarlara (azərbaycanlılara) isə erməniləşməkdən başqa bir şey qalmır" [20]. İ.Çavçavadze yazır ki, biz əminik ki, ağlı başında olan hər bir erməni belə düşünə bilməz. O, daha sonra qeyd edir: "Tutaq ki, Kutulinin peyğəmbərliyi özünü doğrultdu: gürcülər və tatarlar erməniləşdi, ermənilərin qullarına çevrildilər. Axı bu 30 milyonluq erməni dövləti təşkil etmək üçün bir damla olacaq! Artsuri bu qədər təbəəni haradan yığmağı vəd etmişdi? Bu sualın cavabını mərhum "filosof" yəqin ki, özü ilə qəbirə apardı" [19, s.48] Beləliklə, ermənilərin saxta məlumatları əsasında hələ XIX əsrdə Avropada belə təsəvvür yaratdı ki, Gürcüstanda, Tiflisdə xalqın fəxr edə, qürurlana biləcəyi heç nə yoxdur. Onlara erməni generalı Kişmişov da qoşulmuşdu. Hətta ölümündən sonra onun nəşr olunmuş əsəri "Gürcüstan çarlığının son günləri" adlanırdı. Halbuki İ.Çavçavadzenin tarixi mənbələrə əsaslanaraq qeyd etdiyi kimi Gürcüstanda İraklinin çarlığı zamanı parçalanmış Kartalaniya, Kaxetiya, İmeretiya da birləşmək ərəfəsində idi. Hətta ermənilərin nisbətən daha çox cəmləşdiyi İrəvan bölgəsi (Azərbaycan ərazisi-Ö.V.) də ona vergi ödəyirdi. Doğrudur Ağa Məhəmməd şah Qacar onun üzərində qələbə çaldıqdan sonra İraklinin hakimiyyəti bir qədər zəifləmişdi.

Digər erməni müəllifi Q.A. Ezovun "Böyük Pyotrun erməni xalqı ilə əlaqələri" adlı əsərində də Gürcüstan və gürcü xalqı təhqir edilirdi. O, Gürcüstanı İranın xan-

lıqlarından birinin tərkib hissəsi hesab edirdi. Onun zəhərli, acı, saxta fikirlərlə dolu əsərində guya ermənilərin gürcüləri məhv olmaqdan qoruyan xilaskar olduqları göstərilirdi. Bu əsərdə gürcülərə kobud, hiyləgər qeyri-elmi yanaşmalar baş alıb gedir.

Halbuki məşhur Avropa səyyahları Şarden, eləcə də Bodenştedt öz əsərlərində gürcüləri ermənilərə nisbətən daha ləyaqətli, hörmətli, qonaqpərvər, igid və qorxmaz, öz azadlıqları və müstəqillikləri uğrunda fədakar mübarizlər kimi səciyyələndirmişlər. Bodenşdetd göstərirdi ki, "gürcülərin hamısı bu ölkədə mənəviyyatlı, saf, Qafqazın digər xalqları kimi qonaqpərvər, qılıncları kimi etibarlı insanlar, müharibələrdə isə əsil cəngavərlər idilər...." [8, s.203]

***Ermənilərin Tbilisi şəhərinə iddiaları***

Ermənilər Gürcüstanın paytaxtı Tbilisinin də qədim erməni şəhəri "Tpxi" olduğunu iddia edirlər. Hələ sovet dövründə B.S.Nalbandyanın 1961-ci ildə İrəvanda çap olunan "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı saxta əsərində Tbilisini qədim erməni şəhəri kimi təqdim etmişdir. Ermənilər Tbilisiyə "Tpxi" deyirlər. Gürcüstanın "Saerto" qəzetində 2017-ci il dekabrın 7-də "Ermənilər Tbilisinin adını dəyişdirmək istəyirlər" adlı yazıda müəllif Georgi Qorqadze ermənilərin əsassız iddialarına qarşı Gürcüstan hökumət orqanlarının passivliyini aşağıdakı kimi kəskin tənqid etmişdir: "Biz unutmamalıyıq ki, hələ keçən əsrdə (XX əsr) ermənilər Gürcüstana qarşı müharibəyə başladılar. Lakin onda heç nə əldə edə bilmədilər. Ancaq ermənilər arzulayırlar ki, günlərin bir gözəl günündə, əlbəttə, başqalarının köməyilə onlar Tbilisini "qaytaracaq" və onu daha "yaxşı" erməni adı ilə "Tpxi" adlandıracaqlar."[3]

***Ermənilər Tbilisinin onlar tərəfindən tikildiyini iddia edirlər***

Ermənilər Tbilisinin özləri tərəfindən tikildiyini və əksər şəhər merinin erməni olduğunu iddia edirlər. Halbuki ermənilər öz xislətlərinə uyğun olaraq bəzi rus soyadlarını saxtalaşdıraraq erməniləşdirmişlər. Məsələn, onlar qədim Tbilisinin merləri olan rus zadəgan nəslindən İzmayılovu İzmayılyans və İvanı Ovanes kimi təqdim edirlər.

Ermənilərin Tbilisiyə əsassız iddiaları gürcü-erməni qarşıdurmasına səbəb olmuşdur. Vətənpərvər gürcü ziyalıları ermənilərin bu cür əsassız iddialarını ifşa etmişlər. Buna görə də, Gürcüstanda XIX və XX əsrlərdə ermənilər əleyhinə güclü hücumlara başlamışdılar. 1897-ci ildə Tiflisdə nəşr olunan "İveriya" qəzetində çap olunmuş və ermənilərə həsr olunmuş bir məqalədə bir çox ritorik suallar verilir: "Tiflis hansı əsasla erməni şəhəridir: coğrafi mövqeyinə görəmi, ərazi qanunlarına görəmi, yaxud hansı dövlət və beynəlxalq hüquqla? Ermənilər haradadır, Tiflis harada? Onların əlləri haradan haraya uzanır? Onların satın aldıqları evlər onlara məxsusdurmu, bunu hələ aydınlaşdırmaq lazımdır. Lakin Tiflis Gürcüstan ərazisində yerləşir. Burada ermənilərə heç nə məxsus deyildir." İlya Çavçavadze və Akaki Sereteli kimi görkəmli gürcü ziyalıları erməniləri bütün xəyanətlərinə görə ittiham etmişlər.

2017-ci il mayın 29-da erməni Vigen Avetisyanın “Maraqlı tarix” seriyasından nəşr etdirdiyi erməni fondunun eksperti “Noravank” jurnalında Gürcüstan Milli Kitabxanasının fondlar üzrə direktor müavini erməni əsilli tarixçi Levan Taktakaşvilinin “Tbiliselebi” (“Tbilislilər”) jurnalının 31-ci sayında “Ermənilər Tbilisini necə inşa etdilər?” başlıqlı müsahibəsi olduğu kimi nəşr edilmişdir.

Məlum olduğu kimi, Tiflis şəhərinin idarəçiliyini bir vaxtlar şəhər başçısı və ya murovlar yerinə yetirmişlər. Rusiya Gürcüstanı XIX əsrdə işğal etdikdən, Tiflis quberniyası yaradıldıqdan sonra seçilmiş şəhər şurası mövcud olmuşdur. Bu şəhər administrasiyası da öz növbəsində şəhər merini seçirdi. Levan Taktakaşvilinin saxta informasiyasına görə, “öz şəhərinə əksəriyyəti etnik ermənilər olan şəhər merləri qədər sədaqətlə xidmət edən olmamışdı.”[5] Müsahibədə deyilir: “Birinci Tiflis şəhər başçısı İzmerov 1876-cı ildə seçilmişdir. Həmin il yeganə gürcü olan Dmitri Kipiani şəhər meri olmuşdur.” 1905-1910-cu ildə Levan Taktakaşvili Tbilisi merləri arasında Vasili Çerkezovun (Çerkezeşvili) adını xüsusi çəkir. “O, o qədər yaxşı şəhər başçısı olmuşdur ki, onun adı tarixə düşmüşdür. Hətta Tiflisdə onun adına küçə salınmışdır. Soyadlarının sonu bizi yanıltmasın çünki o zamanlar bütün əhalinin etnik mənşələrindən asılı olmayaraq soyadlarının sonu “ov”la bitirdi.[9]

***Ermənilər Tiflisin “erməni şəhəri” olduğunu sübut etməyə cəhd edirlər***

Tiflis əhalisi barədə məlumat verən S.Karapetyan ancaq Yerevanda nəşr olunmuş erməni dilində uydurulmuş “ilk mənbələrə” əsaslanaraq “sübut etməyə” cəhd edir ki, “erməni” əhalisi nəinki yalnız XIX əsrdə, əvvəllər də - lap orta əsrlərdə də Tiflisdə əhalinin əksəriyyətini təşkil etmişdir. [13, s.8] Sonra o, 1932-ci ildə Yerevanda erməni dilində nəşr olunmuş Ok.Akopyanın “Yol qeydləri”nə [I cild, s. 55] “əsaslanaraq” guya XVI əsr mənbəsi Ramusionun italyan dilindəki nüsxəsindən “iqtibas” gətirir: “Bu vilayətdə Tiflis adlanan gözəl şəhər vardır. Onun ətrafında çoxlu qalalar və qala divarları ilə əhatə olunmuş kəndlər vardır. Orada xristian ermənilər, gürcülər, bir az da “sarasinlər” və yəhudilər yaşayırlar”. Yenə də S.Karapetyan Yerevanda uydurulmuş mənbələrə “söykənir”. 1976-cı ildə Yerevanda erməni dilində “tərtib edilmiş” “XVII əsr (1629-cu il) erməni əlyazması abidəsi”nin ikinci sayından [s. 321] “iqtibas” gətirir: “Tiflis erməni şəhəridir”. Ermənilərin çox güman ki, təhrif etdikləri və 1955-ci ildə İrəvanda nəşr etdirdikləri uydurma mənbələrdən olan “Ermənistan və ermənilər haqqında gürcü mənbələri” əsərinin üçüncü cildindən [s. 83] S.Karapetyan Gürcüstan şahzadəsi Vaxuştinin 1745-ci ildə yazdığı bir cümləni göstərir: “Tiflisin əhalisi arasında Bərdə və Seyidabadda yaşayan müsəlman farslar, Bərdədən kənarda isə ermənilər üstünlük təşkil edir, gürcülərin sayı isə çox azdır.” S.Karapetyan Tiflisdə azərbaycanlıların, türklərin yaşamadığını “sübut etmək” üçün “fars-müsəlman” ifadələrindən istifadə etmişdir. Halbuki Tiflisdə və onun ətrafında – Təhlə, Qaracalar, Kaspi bölgələrində tarixən azərbaycanlılar yaşamış, XVII əsrdə Şah Abbas Gürcüstanı işğal edərkən özü ilə gətirdiyi mübariz azərbaycanlı tayfaları da Tiflis ətrafında yerləşdirmiş, onlar sonralar yerli azərbaycanlılarla qaynayıb-qarışmışlar.

S.Karapetyan XIX-XX əsrin əvvəllərinədək tərtib etdiyi ermənisayaq cədvəllərində Tiflisdə 1848-ci ildən 1916-cı ilə qədər guya ermənilərin 46,1-40,9%, gürcülərin 24,8-10,8%, rusların 20,7-22,0%, digər xalqların 7,2-19,4% təşkil etdiyini "sübut edir".

Sovet dövründə Tiflisin əhalisinin xüsusi çəkisində ermənilərin azalmasından "təəssüflənən" S.Karapetyan 1979-cu ildə Tiflisdə 153000 erməni (14,0%), 653000 gürcü (62,0%), 129000 rus (12,0%) yaşadığını, burada digər millətlərin olmadığını "qeyd edir". Halbuki Tbilisidə indi də xeyli sayda azərbaycanlılar yaşayırlar.

Vaxtı ilə dar küçələri, palçıqlı yolları olan Tiflis Rusiya canişini general Yermolovun sayəsində sırf Asiya şəhərindən yarı Avropa şəhərinə çevrildi. 1840-1864-cü illərdə Tiflisdə yeni idarəetmə sistemi, ictimai idarəçilik tətbiq edildi. Bunun təşəbbüskarı Əlahiddə Qafqaz korpusunun komandanı və Qafqaz mülki idarəsinin sədri Y.A.Qolovin idi.

1847-ci ildə Gürcüstan canişini M.Vorontsovun təşəbbüsü ilə şəhər idarəçiliyi sistemində dəyişiklik edilərək oraya yeni inzibati orqanlar əlavə edildi. Rusiyanın erməniləri Qafqaza, o cümlədən Tiflis quberniyasına və Tiflisə köçürməsi nəticəsində onların sayı yerli millətlərə nisbətən artdı. Ona görə də Tiflis də daxil olmaqla Tiflis quberniyasında ermənilərin sayı 558000 nəfər, azərbaycanlıların sayı isə 63000 nəfər oldu.[2, s.24]

S.Karapetyan Tbilisini-Tpxisi bütün Qafqazın və Zaqafqaziyanın, həmçinin eyni mənada Ermənistan (?) və Gürcüstanın paytaxtı hesab edir. 1858-ci ildə Tiflisin nisbətən inkişaf etməsini göstərən S.Karapetyan yenə saxta erməni mənbələrinə istinad edir. Onun saxta istinadında oxuyuruq: "Tiflisi yaxud bizim dildə (erməni dilində-V.Ö.) Tpxisi indi bütün Qafqazın və Zaqafqaziyanın, həmçinin eyni mənada Ermənistan (?) və Gürcüstanın paytaxtı hesab etmək olar". [13, s.21] Bu əsl saxtakarlıqdır. Tiflisi Gürcüstanla yanaşı mövcud olmayan Ermənistanın da paytaxtı hesab etmək əsl cəfəngiyyatdır.

1860-cı ildə Tiflisin inkişafı ilə yanaşı, şəhər idarəetmə sisteminin tərkibi yeni vəzifələrlə şəhər idarəetmə katibi, şəhər rayonları komissarları vəzifələrilə zənginləşdi. Bu idarəetmə forması 1867-ci ilə qədər mövcud oldu. Lakin ermənilərin yüksək vəzifə tutmalarını mənbələr təsdiq etmir. T.Svyatoxovski onların "idarəçiliyin aşağı pillələrində yer tutduqlarını" göstərir: "Çar məmurlarının apardığı mərkəzləşmə və ruslaşdırma siyasəti arasındakı oxşar uyğunluq 1860-cı illərdə yenidən bərpa oldu... Bu bürokratik idarəetmə aparatının aşağı pillələrində qərar tutmuş yerli kadrların (o cümlədən gürcülərin və azərbaycanlıların-Ö.V.) çox güclü ixtisarı ilə nəticələndi və ərazinin idarə olunmasında əksər mövqelər rus və ermənilərin əlinə keçdi. III Aleksandrın hakimiyyəti dövründə bu hadisələr özünün ən yüksək zirvəsinə çatdı. [2, s.24] Göründüyü kimi, S.Karapetyanın uydurduğu kimi ermənilər yüksək pillələrdə deyil, aşağı pilləiərdə vəzifələr tuturdular. Ancaq o, 1875-ci ildə "təkcə merlərin deyil, şəhər idarəsinin əksər üzvlərinin də ermənilərdən ibarət olduğunu" sayıqlayır.

1880-1890-cı illərdə Tiflis şəhər idarəsində (dumasında) milli münasibətlərdən bəhs edən erməni tarixçisi yenə ermənilərin üstün mövqe tutmasından bəhs edir. Erməni əsilli Q.Tumanov "Qafqazda şəhər özünidarəsi haqqında qeydləri" əsərində Tiflisdə ermənilərin əhalinin 47 % ni təşkil etdiklərini şəhər şurasında səslərin 72% nə malik olduqlarını iddia edir. [17, s. 1] Digər bir erməni saxta tarixçisi K.Turyan ermənilərin şəhərdəki say üstünlüyünü pulun ermənilərin əlində cəmləşməsilə əlaqələndirir: Ticarət və faydalı pullu müəssisələr onların (ermənilərin-V.Ö.) əllərində idi. Tiflisin erməni maliyyə maqnatları hər hansı bir pul müəssiəsinin ətrafına toplanırdı.

Onların iddiasına görə guya Tiflis bankları ermənilərin pulları hesabına fəaliyyət göstərirdi. "Tiflis kommersiya bankı", "Qarşılıqlı kredit cəmiyyəti", "Şəhər kredit cəmiyyəti", "Şəhər yanğından mühafizə sığortası cəmiyyəti"ni guya ermənilər yaratmışdılar, onlar guya həmin müəssisələrin səhmdarları idilər". [18, s. 292-293]

Bu saxta erməni tarixçiləri Tiflis merləri ilə yanaşı, şəhər şurasının əksər üzvlərinində ermənilərdən ibarət olduğunu uydururlar. XIX əsrin 90-cı illərində şəhər seçkilərində erməni və gürcü-rus qruplaşmaları arasında münasibətlərin kəskinləşdiyi göstərilir. Erməni "tədqiqatçıları" bunu seçkilərdə ermənilərin çox səs toplaması ilə izah edirlər. Bizim fikrimizcə isə, ermənilərin seçkilərdə saxtakarlıqlarına qarşı ruslarla gürcülər birgə mübarizə aparırdılar.

Gürcülərin Tiflisdə nəzərəçarpacaq dərəcədə az olmasını erməni tarixçisi Q.Tumanov özünəməxsus, ermənisayağı şərh edir. "Gürcü kartlilər və gürcü-kaxetiyalılar arasında şəhərlilərin sayı az idi. Onlar torpaq və silah adamları idilər. Kənd təsərrüfatı və hərbi xidmət Şərqi Gürcüstan əhalisinin əzəli və sevimli məşğuliyyəti idi. Zaman çox şeyi dəyişdi: gürcü əhalisinin müxtəlif siniflərindən bir çoxy burjuaziyanın məlum elementinə çevrildi. İndi komersant gürcülərə, azad peşə sahibi olan adamlara rast gəlmək olur. Lakin onlar çox azdır. Onların əksəriyyəti hətta Tiflisdə seçki senzinə malik deyildirlər". [17, s. 5] Buna görə də gürcülər guya şəhər meri vəzifəsinə nadir hallarda seçilirdi.

***Bəs gürcü mənbələri nə deyir?***

Gürcü mənbələri Tbilisiyə dair erməni tarixçilərinin bütün baxışlarını alt-üst edir. Qədim gürcü salnaməsində hələ IV əsrdə Tbilisinin möhkəmləndirilmiş şəhər olduğu və Şərqi Gürcüstan çarı Varaz-Banurenin iqamətgahı olduğu göstərilir. Akademik Canaişia hələ o vaxtlar şəhərin inzibati-təsərrüfat, hərbi strateji əhəmiyyət kəsb etdiyini qeyd edir, Tbilisidə V-VI əsrlərdə çar Vaxtanq Qarqasal və onun oğlu Daçi şəhərdə tikinti aparmış, şəhər divarlarını möhkəmləndirmişlər. Hələ VI əsrdə Bizans tarixçisi Feofana 571-ci ildə gürcülərin farslara qarşı üsyanından bəhs edərkən yazmışdır: "İberlərin paytaxtı Tiflis idi"[10, s.12]

VII əsrdə Tbilisiyə Şərqi Gürcüstan feodal knyazı başçılıq edir. VII əsrdə ərəblər tərəfindən işğal olunmuş Tbilisidə əmirlər otururdu. Akademik Canaşia hələ X əsrdə erməni yazıçısı Uxtanesin Tbilisini Gürcüstanın "böyük paytaxtı" olduğu fikrini diqqətə çatdırır .[10, s.16]

X əsrin ortalarında Tbilisi əmirləri müstəqil feodallara çevrilirlər. Tbilisi 1122-ci ildə Gürcüstana birləşdirilmiş və IV Qurucu David öz iqamətgahını Kutaisidən Tbi-lisiyə köçürülmüşdür.

S.Karapetyanın "bərbad zibilli" hesab etdiyi Tbilisi, hələ "XI-XIII əsrlərdə geniş meydanları, möhkəmləndirilmiş divarları, bürcləri və qalaları olan şəhər idi. Mənbələrdə Dəriğəli və İsani iç qalaları, istehkamları, skalkinika və Tabori bütrcləri İsanidə Kürdən keçən körpülər xatırlanır. Əsas çar sarayı İsanidə yerləşirdi"[10, s. 19] İsaani ermənilərin daim xatırladığı Ablabardır. Amma gürcü tarixçisi akademik S.Canaşia göstərir ki, "İsaaninin" də, "Ablabarın" da qədim adları ərəb mənşəlidir. İsani "saray ətrafı", Ablabar isə "istehkam, iç qala", "bürc" deməkdir. Şübhəsiz ki, ermənilər Ablabara XIX əsrdə ruslar tərəfindən köçrülmüş və orada yerləşdirilmişlər.

XII-XIII əsrlərdə Tbilisi inkişaf edərək Yaxın Şərqin əsl iri şəhərlərindən birinə çevrildi. Buna görə də Roma papası XXII İoann Gürcüstan çarlığının paytaxtı Tefelisi ən yaxşı, əhalisi çox, varlı, rahat məşhur şəhər hesab etdiyindən katolik yepiskopluğunun iqamətgahını Stirnıdan Tbilisiyə köçürdü.

XVII əsrdə Tiflisdə oturan Kartli çarı İran şahının vassalı olduğundan Tbilisinin bəzi səyyahları və tədqiqarçılar onu İran şəhərlərindən biri kimi təqdim edirdilər. Məşhur fransız botaniki Turnefarun verdiyi məlumata görə 1700 -cü ildə Tiflisdə 20 minə yaxın əhali yaşayr, 12 kilsə və 2 məscid var idi. Kilsələrin əksəriyəti gürcü,biri isə erməni və katolik kilsələri idi.

"XVIII əsrin 60-cı illərində Tiflis birləşmiş Kartli-Kaxeti çarlığının paytaxtı olur. Çar II İrakli şəhərin iqtisadi və mədəni yüksəlişinə nail oldu"[11, s. 25]

S.Karapetyan Tiflisdə İrəvan qapısının olduğunu iddia edir. Akademik S.Canaşia isə yazır: "Bu şəhər daş divarla əhatə olunmuş və 6 qapısı var idi (Diqomi, Kocori, Çay, Hamam, Gəncə, Qars qapıları)". [10, s.27]

1840-cı ildə Tiflis Zaqafqaziya diyarının inzibati mərkəzi oldu və 1845-1917 – ci illərdə Qafqaz canişininin qərargahı olaraq qaldı. Tiflis feodal şəhərindən Avropa burjua tipli şəhərə çevrilsə də öz köhnə spesifik xüsusiyyətlərini saxladı.

1886-cı ilin fevralın 24-də Rusiya Nazirlər Şurasının qərarı ilə Zaqafqaziyada keçirilən siyahıyaalma zamanı Tiflisdə əhalinin milli şəraiti, əqidəsi, ictimai mövqeyi haqqında məlumat verilir. Bu siyahıyaalmanın keçrilməsinə Qafqazın mülki hissəsinin baş rəisi, general-adyudant, knyaz A.M. Dondukov-Korsakov rəhbərlik etmiş, prosesdə vilayət qubernatorları və rəisləri də fəal iştirak etmişlər.

Tiflis quberniyasında aparılan siyahıyaalmada Tiflis şəhərində 78445 nəfərin yaşadığı məlum olmuşdur. [16, s. 8] Həmin mənbədə göstərilirdi ki, quberniya şəhəri Tiflisdə 43822 nəfər kişi, 34623 nəfər qadın yaşayırdı. Burada 1876-cı il və 1886 –cı il siyahıyaalmalarının məlumatları verilmişdir.

1876-cı ildə Tiflisdə rusların (maloruslar), bolqarlar, çexlər və slovaklarla sayı 19617 nəfər, 1886-cı ildə 36113 nəfər, müvafiq olaraq gücülərin sayı 21542 nəfər və 38357 nəfər, azərbaycanlıların sayı (mənbədə "Aderbaycan tatarları" adlanır) 2186 və 2505 nəfər, köçürülmüş ermənilərin sayı 37308 nəfər olmuş-

dur.[16] Tiflisdə XIII əsrdə 100 min nəfərdən artıq əhali yaşayırdı. Şəhərdə XVIII əsrin əvvəllərində 20 min, XIX əsrdə 25 min, 1865-ci ildə 71 min, 1886-cı ildə 78 min, 1897-ci ildə 161 min nəfər əhali yaşayırdı, XX əsrin 30 –cu illərində sovet dövründə Tbilisinin əhalisinin sayı 519 175 min nəfərə çatdı.

Tiflisdə pravoslavlar, təriqətçilər, erməni qriqoryanlar, erməni-katoliklər, Roma katolikləri, lüteranlar, müsəlmanlar, hestorianlar və ieduistlər yaşayırdılar.

Müasir Tbilisinin qədim hissəsi kiçik bir ərazini tutur. XVIII əsrin 30-cu illərində gürcü tarixçisi və coğrafiyaçısı Vaxuşti Baqrationu onun dəqiq planını tərtib etmişdir. Vaxuştinin məlumatına görə, qədim Tbilsi üç hissədən ibarətdir: onlardan biri Qala, ikincisi Seydabad, üçünsüsü İsna (XIV əsrdə Ablabar adlanıbdır) Qalanın cənub hissəsində Narınqala istehkamı, Şahtaxtı qalası, Qala meydanı yerləşir"[16, s.31] Qədim Tbilsinin ikinci hissəsi Seyidabad XVIII əsrdə Səfəvi şahı şah Səfi burada seidlərin yerləşdiyindən belə adlanmşdır.Şəhərin üçüncü hissəsi İsanidən körpü vasitəsilə Kürün əks tərəfi ilə əlaqə saxlanırdı.

***Nəticə***

Beləliklə, əssasız uydurma erməni mənbələrinə əsaslanan saxtakar erməni tarixçiləri qədin Gürcüstanın əzəli paytaxtı Tbilisi şəhərinə iddia edir, onu yalançı erməni termini ilə əvəz edir, demoqrafik, tarixi təhriflərə yol verərək "erməni şəhəri" olduğunu "sübut etməyi" cəhd edirlər. Tarix və mənbələr bu qədim şəhərin gürcü şəhəri olduğunu,..Bir çox millətlərin, o cümələdən azərbaycanlıların burada tolerant mühitdə gürcülərlə mehriban bir ailə kimi yaşadıqlarını təsdiq edir. Ermənilər isə Qafqaza, həmçinin Tiflisə XIX əsrdə ruslar tərəfindən köçürülmüş, gəlmə xalq olmuş, bütün dünyada olduğu kimi bu bölgədə də "xəstə ermənilik" ideyasını reallaşdırmaq xəyali "Böyük Ermənistan" yaratmaq planlarına nəinki Tiflisi, Tiflis ətrafını, hətta Borçalı zonasını da daxil etmişlər.

***İstifadə olunmuş ədəbiyyat***


1. Ömərov V., Kəlbizadə E., Mirzəyeva Gürcüstan:daxili ictimai-siyasi şərait.Bakı: Mütərcim, 2018,168 s.
2. Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2000, 373 s.
3. Армяне потребовали переименовать Тбилиси. // www.news.day.az/politics/-848546.html (08.12.2016)
4. Армянский Тифлис безвозвратно утерян. // www.armtoday.info¬/default.asp?Lang=_Ru&NewsID=7777 (27.12.2008)
5. Армянский мастер главных часов Тбилиси. // www.hayernaysor.am/ru/archives/247211(19.05.2017)
6. Бакули А. Почти все меры Тбилиси были армянами. //www.noravank.am/rus/issues/detail.php? ELEMENT_ID=3102 (09.02.2006)
7. Библиотека для чтения. СПБ, 1838, с.151-178
8. Боденщтедт. Кавказские народы. Мунхен,1847,380 с.
9. «Власти Тбилиси уродуют историю города, но правда для армян окажется еще страшнее».//www.vesti.az/news/224022?keepThis=true&TB_iframe=true&height=500&width=1100&caption=Vesti+Az (01.11.2014)

10. Джанашия С. Исторический очерк о Тбилиси//Тбилиси. Юбилейный сбрник. Тбилиси, Заря Востока. 1946, с.12 с.11-37
11. Джанбаридзе Н., Мацабели К. Тбилиси . Мцхета. Москва: Исскуство, 1981, 255 с.
12. Канадцев И.К. Очерки Закавказской жизни. Отдельные главы. Баку: Главная редакция Азербайджанской Советской Энциклопедии. 1990, 122 с.
13. Карапетян С. Мэры Тифлиса (Тбилиси). Ереван: Издательство «Гитутян», НАН АР, 2003, 128 с.
14. Лео. Собрание Сочинений. Том IV., Ереван, 1984, 238 с.
15. Сборник законов грузинского царя Вахтанга МЖ. Тифлись: изд Франкелья, 1876, 420 с.
16. Сводь статических данных о население. Закавказского края. Тифлиская Губерния. Тифлись,1893, 152 с.
17. Туманов Г.М. Заметки городском самоуправления на Кавказе. Тифлис, 1902, 126 с.
18. Тюрян К. Неделя в Тифлисе. “ Анлес Амсонеа”, 1890, 328 с.
19. Чавчавадзе И.Г. Армянские учение и вопиющие камни. Баку: Элм, 1990, 128 с.
20. Temps, 1877, Paris, 30 jule